

# Muzeylə bağlı ömür

Muxtar Respublikanın mədəniyyət ocaqlarından biri olan Naxçıvan Dövlət Tarix Muzeyinin 2004-cü il oktyabrın 30-da 80 yaşı tamam oldu.

Naxçıvan Dövlət Tarix Muzeyinin qurulmasında, zəngin və qədim eksponatların muzeyə toplanmasında böyük əməyi olmuş şəxslərdən biri də Mirbağır Mirheydərzadədir.

Gəlin, bu şəxsin həyat və fəaliyyəti ilə tanış olaq.

Mirbağır Mirheydər oğlu Mirheydərzadə 1877-ci ildə Ordubad rayonunun Nurgüt kəndində ruhani-kəndli ailəsində anadan olmuşdur.

Ağır güzəran keçirən Mirheydərzadənin ailəsi Naxçıvan şəhərinə köçməyə məcbur olur. Atası, Mirbağırı din xadimi hazırlamaq məqsədilə 1887-ci ildə Naxçıvan şəhər mədrəsəsinə qoyur. Mirbağır 1896-cı ildə həmin mədrəsəni qurtarır. Lakin maddi vəziyyəti imkan vermədiyindən ali təhsil almağa gedə bilmir. Nəhayət, dərzi Məşədi Məhərrəmin maddi müavinəti və təkidi ilə Mirbağır Təbriz ruhani məktəbinə göndərilir.

1899-cu ildə təhsili başa vuran Mirheydərzadə vətəni Naxçıvana qayıdır. Lakin ruhanilik sahəsində iş tapa bilmədiyindən Tiflisə gedir. Tiflisin inqilabi əhval-ruhiyyəli adamları ilə tanış olan Mirbağır inqilabçı demokratlara meyl edir. Bunu eşidən Şeyxülislam 1904-cü ildə Mirheydərzadəni ruhanilik işindən azad edir. 1907-ci ildə isə bütünlüklə ruhanilik hüququndan məhrum olunur.

1901-1905-ci illərdə mərkəzi və cənubi Rusiyada, Ukrayna, Batum, Bakı və Tiflisdə baş verən fəhlə tətilləri və kəndli çıxışları Mirbağırın ictimai şüurunda böyük dəyişiklik əmələ gətirir. Tiflisdə inqilabi hərəkat yoluna düşən Mirbağır Bakı Sosial-Demokrat Partiyasının Tiflis "Hümmət" şöbəsinin rəhbəri N.Nərimanov ilə 1905-ci ildə tanış olur və "Hümmət" təşkilatına daxil olur. Tiflisdə N.Nərimanovla tanış olan Mirheydərzadə tez-tez onun yanında olub söhbətlər edir və mühazirələrinə qulaq asırdı.

N.Nərimanovun tapşırığı ilə o, İran təbəsi olan fəhlələr və kustar sənətkarlar arasında şah və çar mütləqiyyətinə qarşı təbliğat aparır, təsirli çıxışlar edir, mühazirələr oxuyur.

Siyasi fəaliyyət dairəsini genişləndirən Mirheydərzadə Tiflisin geniş ictimaiyyətilə, onun qabaqcıl inqilabçı adamlarından Əşrəf Yüzbaşıyev, Caparidze, Əli Tağızadə və başqaları ilə tanış olur. Mirheydərzadə yazır: "Mənim işimin başlıca hissəsi Tiflis tütün fabrikindəki azərbaycanlı fəhlələr arasında təşviqat aparmaqdan ibarət idi".

Bununla bərabər "Hümmət" təşkilatının tapşırığı ilə Mirheydərzadə Batum, Bakı, Mahaçqala, Vladiqafqaz, Kars, İrəvan, Naxçıvan şəhərlərinə göndərilir. Bu şəhərlərdə "Hümmət"in özəklərində aparılan təbliğat-təşviqat işləri ilə tanış olur.

Çar və şah monarxiyasına qarşı mətin mübariz, "Hümmət" və "Mücahid" partiyalarının görkəmli təşkilatçısı və təlimatçılarından biri olan Mirheydərzadənin iş fəaliyyəti polis-jandarm idarəsinin nəzərindən yayınmır. O, ciddi təqib edilir.

Mirheydərzadənin şah monarxiyasına qarşı mübarizə aparmasından xəbərdar olan İranın Tiflis konsulu əlahəzrət imperator Qafqaz canişinliyinin daxili işlər naziri Kaxanova belə bir məlumat verir: "Naxçıvan əhli Mirheydərzadə 1905-ci ilin noyabr ayında müsəlmanlar arasında da hökumət əleyhinə təşviqat ideyası məqsədilə 10-12 nəfərdən ibarət komitə yaratmışdır".

Araşdırılan arxiv sənədlərindən məlum olur ki, Mirheydərzadə Naxçıvan qəzasında "Hümmət" qrupunun lideri olmaqdan başqa "mühacidlər" komitəsinin başçılarından da biri idi. Bu komitənin başlıca məqsədi beynəlmiləl dəstələr yaradıb inqilabçı Təbrizin köməyinə göndərmək idi. Canişinliyə təqdim olunan başqa bir xəfiyyə məlumatında deyilir ki, Mirheydərzadənin başçılığı ilə İrəvandan Kərim, Naxçıvandan Qulu inqilabi bəyənnamələr yaymaqla məşğul olurlar.

Həmin polis məlumatı üzərində canişin Varontsov-Daşkov belə bir dərkənar qoyur: "Polkovnik Zasıpkinə - hər üçü həbs edilsin".

Onlar hər üçü xəfiyyə idarəsi tərəfindən həbs edilərək Metex qalasına salınır. Mirheydərzadə bu barədə yazır: "1905-ci ildə nəhayət həbs olundum və Metex həbsxanasına salındım, orada Midjivanijze ilə bir kamerada oturdum".



Tutarlı faktlar olmadığından Mirheydərzadə bir neçə aydan sonra həbsdən azad edildi. O, yenidən inqilabi fəaliyyətini davam etdirərək Tiflis "Hümmət" təşkilatının tapşırığı ilə fəhlələr arasında təbliğat işilə məşğul olur və "mühacidlər" partiyasına üzv cəlb edir. Təbriz inqilabı barədə məlumatlar verir.

1907-ci ilin 28 avqustunda Mirheydərzadə inqilabi təbliğat aparmaqda təqsirləndirilərək ikinci dəfə Metex həbsxanasına salınır. Mirheydərzadəyə qarşı düzəldilən xəfiyyə fitnəsi baş tutmur, iki aydan sonra oktyabrın 2-də həbsdən buraxılır, elə bu zaman da o, din xadimliyindən əl çəkib birdəfəlik peşəkar inqilabi yolu qəbul edir. Müntəzəm surətdə xəfiyyə nəzarəti altında olan Mirheydərzadə 1908-ci il yanvarın 15-də üçüncü dəfə həbsə alınır, 20 günlük istintaqdan sonra azad edilir. Lakin xəfiyyə idarəsinə yenidən material daxil olur. Daxil olan məlumatda göstərilir ki, Mirheydərzadə Tiflis poçtundan Naxçıvan şəhər əhli Heydər Kərbəlayi Əli oğlu Məmmədovun adına "Qafqaz sosial-demokrat partiyası", "Hümmət"in üzvlük haqqı qəbzini göndərmişdir. Onun Naxçıvandakı evində axtarış aparılır, lakin onu ələ keçirmək mümkün olmur.

Doğrudan da, Mirbağır Mirheydərzadənin Naxçıvan sosial-demokrat "Hümmət" qrupu ilə nəinki əlaqəsi olmuş, hətta onun təşkilatçılarından biri olmuşdur. Bu zaman Tiflisdə yaşayan naxçıvanlılardan Rzaqulu və Nəcəfqulu Nəcəfovlar, Eynəlibəy Sultanov, Mirbağır Mirheydərzadə, Cəlil Məmmədquluzadə və başqaları açıq fikirli adamlar olur. Mütləqiyyət üsuluna, habelə onun çirkin milli siyasətinə qarşı mübarizə aparan demokratik inqilabi təbliğatçılar idilər. Naxçıvan ilə bilavasitə əlaqə saxlayan Mirheydərzadə və Nəcəfovlar burada və Culfada "Hümmət" və "Mücahid" təşkilatlarının yaradılmasında mühüm rol oynamışlar.

Naxçıvanda inqilabçılar qrupunu müəyyən edən xəfiyyə idarəsi anketlər vasitəsilə axtarış aparır. Axtarış zamanı Naxçıvan əhli Kərbəlayi Məhəmməd Tağıyevin mücahid təşkilatına, Heydər Məmmədovun "Hümmət"ə mənsub olduğu aydınlaşır. Hüseyn Əliqulu oğlundan İran nazirini öldürən Abbasağanın şücaətini tərif edən kitabça və onun şəkli tapılır. 1907-1908-ci ilin təqribən fevral ayında Naxçıvan axtarışında ələ keçməyən Mirheydərzadə Təbriz və Xoy şəhərlərində "Hümmət" və "Mücahid"lər təşkilatının işini yoxlamağa göndərilir. Bu zaman Təbriz komitəsi silah və sair sursat almaq üçün Mirheydərzadəni Tiflisə qaytarır.

Culfada Cəmşid adı ilə yaşayan məşhur inqilabçı Nəsrulla Şeyxov çox çətinliklə rus Culfasına keçən Mirheydərzadəni və onu müşayiət edən Təbriz inqilab komitəsinin beş nəfər mücahidini məxfi yollarla Naxçıvana göndərir. Bunu bilən xəfiyyə idarəsi axtarış təşkil edir, lakin onları tapa bilmir. Xəfiyyə-jandarm axtarışından yaxa qurtarmaq üçün Mirheydərzadə Şahtaxtı kəndinə gedir və qatarla Tiflisə yola düşür.

Bu tapşırığı yerinə yetirən Mirheydərzadə Bakıya qayıdan kimi Sərdar xan Moxi və Məmməd xan adlı adamlar ilə Gilan şəhərinə göndərilərək, orada müəllim pərdəsi altında Sərdar xan Moxinin əmisi Yusif xanın evində yaşayır. Zaqafqaziyadan göndərilən mütəxəssislər tərəfindən bomba hazırlanması işinə nəzarət edir.

Bakı komitəsinin tapşırığı ilə Mirheydərzadə Rəşt şəhərinə gedib təbliğat işləri ilə məşğul olur. Burada xəstələnən Mirheydərzadə Bakı komitəsi tərəfindən Mineralnıvoda müalicəyə göndərilir. Müalicədən qayıdan Mirheydərzadə Bakı komitəsi tərəfindən yenidən Rəşt və Tehran şəhərlərinə göndərilir. Bu şəhərlərdə şah və çar monarxiyasına qarşı təbliğat və təşviqat işinin qurulması ilə məşğul olur.

Mirheydərzadənin ələ keçirilməsi işi ilə mübaliğəsiz desək, bütün Zaqafqaziya xəfiyyə orqanları məşğul olur. Lakin peşəkar inqilabçını ələ keçirmək mümkün deyildi.

Jandarm idarəsinin məlumatında göstərilir ki, Naxçıvan şəhər əhli Hacı Bağır Mirheydərzadə ideyalı köhnə sosial-demokratdır. 1905-1907-ci illərdə Tiflis həbsxanasında saxlanılıb İran inqilabında iştirak etmiş adamdır... Onu Qafqazda, xüsusən gürcü demokratları arasında partiya işçisi kimi çox yaxşı tanıyırlar. Bununla bərabər o, İran inqilabında iştirak etmiş və orada tanınmışdır. Bu deyilənlərə əsasən Hacı Bağırın Qafqazda və İranda əhəmiyyətli dərəcədə müsahibləri vardır.

Doğrudan da, mətin sosial-demokrat Mirheydərzadə "rəncbər" ləqəbi ilə 1912-ci ilə kimi İran şəhərində partiya işi ilə məşğul olur. Mirheydərzadə Bakı tərəfindən Tehrandan çağrılır və çox çəkmədən Naxçıvana göndərilir.

1914-cü ildə Naxçıvan "Hümmət" qrupu Mirzəlibəy Bəktaşi başda olmaqla xeyli canlanaraq geniş təbliğat işilə məşğul olur. Bununla bərabər, dünya müharibəsinin başlanması əleyhinə hər yerdə gizli təşkilatı iş aparılaraq, əhali müharibə əleyhinə etiraza çağrılır. Bu təkliflərə qarşı çıxan Mirbağır Mirheydərzadə, M.Bəktaşi, demokrat Məmməd əhalini müharibə və çarizm əleyhinə qarşı açıq çıxışlara səsləyirlər.

Təşkilatın tapşırığı ilə müharibə əleyhinə təbliğat və təşkilat işi aparmaq üçün Maku şəhərinə göndərilən M. Mirheydərzadə orada bir nəfər kürd inqilabçı ilə görüşüb, "vaizlik" pərdəsi altında işləyir. Bundan xəbər tutan jandarm idarəsi Mirheydərzadəni və kürd inqilabçılarını həbsə alır. Lakin aşura mərasimçilərinin təkidi ilə onların hər ikisi azad edilirlər.

Maku səfərindən geniş məlumatla geri qayıdan Mirheydərzadə və "Hümmət" qrupunun başqa üzvləri 1915-ci ildə müharibə əleyhinə təbliğatı daha da genişləndirirlər. Siyasi təşkilatın işi xeyriyyə idarəsinin nəzarətindən yayınmır və onlara qarşı təqib gücləndirilir. Nəhayət, 1916-cı ilin oktyabr-noyabr aylarında təşkilatın sirri açılır. 40 nəfərdən 31 nəfəri ələ keçirilib İrəvan quberniya-

sı həbsxanasına göndərilir.

1917-ci ilin fevralında çar hökuməti yıxılır. Mirheydərzadə, Mirzəlibəy Bəktaşi, Məşədi Əhməd Əzimov, Hacı Mehdi Bağırov, Molla Mahmud Cakər Camalbəyov, Kərbəlayi Əli Babayev və başqa məhbuslar azad olunurlar.

Demokratik azadlıq qrupunun üzvləri həbsdən azad olunandan sonra "Hümmət"in fəaliyyəti xeyli canlanır. Bakı "Hümmət" təşkilatı ilə əlaqə yaradılaraq oradan rəhbərlik alınır. Şəhərdə klub təşkil edilir. Müvəqqəti hökumətin yerli orqanlarına qarşı mübarizəsi gücləndirilir, "milli komitə"nin xanlardan və daşnaqlardan ibarət ikiüzlü siyasəti ifşa olunur və sair.

1918-ci ilin iyul ayında erməni daşnaqları Culfadan Gilançay və Əlincəçay boyu kəndləri talayıb əhalisini dərbədər edərək Naxçıvan şəhərinə gedib yolda Nehrəm kəndinə daxil olurlar. Nehrəmin ağır dəqiqələrində Mirbağır Mirheydərzadə atlara xeyli miqdarda patron, əl qumbaraları yükləyib gözə görünmədən kəndin müdafiəçilərinə çatdırır və müdafiəçiləri qələbəyə çağırır.

Mirheydərzadənin 1918-1919-cu illər erməni daşnaqlarına və ingilis-amerikan müdaxiləçiliyinə qarşı mübarizədə də böyük fəaliyyəti olur. Onun başlıca məqsədi Naxçıvan ölkəsini demokratik əsasda idarə etmək idi.

1920-ci ildə (iyunun 28-də) Naxçıvan Sovet Hakimiyyəti qurulur. Naxçıvan inqilab komitəsi yaradılır. İnqilab komitəsi avqust-oktyabr aylarında keçirdiyi iclaslarında ölkədə bir çox təşkilatların yaradılmasına qərar qəbul etdi.

M. Mirheydərzadə ölkə partiya təşkilatının yaranmasında çox mühüm rol oynayır. O, ölkə partiya komitəsinin təşkilat şöbəsinə müdir və siyasi büro üzvü seçilir.

Ölkədə ərzaq təchizatının təşkilində də M.Mirheydərzadənin böyük xidmətləri olmuşdur. Onun səyilə İrandan taxıl və başqa ərzaq növləri alınır, ərzaq toplanıb aclara paylanır, ərzaq təchizatı ambarlarına nəzarət edilir.

Ölkənin tarixi sahəsində geniş məlumata malik olan Mirbağır Mirheydərzadə 1925-ci ildən ölkəşünaslıqla məşğul olur. O, 1925-ci ilin may ayında Naxçıvanda yaradılan Naxçıvan "Tədqiq və Tətəbbə" cəmiyyətində elmi vəzifəsini aparmışdır.

Naxçıvan "Tədqiq və Tətəbbə" cəmiyyətinin 1925-1938-ci illərin iclas protokollarından aydın olur ki, muxtar respublikada aparılmış bütün elmi tədqiqat işləri müzakirə edilərək mühüm qərarlar qəbul edilmişdir.

Bununla bərabər Mirheydərzadə Naxçıvan MSSR xalq maarif komissarlığının 18 oktyabr 1928-ci il tarixli əmrilə Naxçıvan partiya-sovet məktəbinə ölkəşünaslıq dərsləri üzrə müəllim təyin edilir. Mirheydərzadə partiya-sovet məktəbində pedaqoji işlə məşğul olur və elmi tədqiqat məsələləri sahəsində xeyli fəaliyyət göstərir. Moskva, Leninqrad və Bakıdan gələn elmi-tədqiqat ekspedisiyalarının arasında respublikanın ayrı-ayrı yerlərində elmi iş aparır. Həmin elmi tədqiqat işləri əsasında Mirheydərzadə tərəfindən yazılan elmi əsər əl yazısında Azərbaycan Respublikası Elmlər Akademiyası Tarix İnstitutuna verilmişdir.

Mirheydərzadənin elmi tədqiqat sahəsindəki bilik və bacarığını nəzərə alaraq Naxçıvan MSSR xalq komissarlığı onu 27 avqust 1930-cu il tarixli, 352 saylı əmrlə Naxçıvan Dövlət Muzeyinə direktor təyin edir. Qeyd etmək lazımdır ki, Mirheydərzadə ardı kəsilmədən qüsursuz, həm də çox səmərəli olaraq 15 il dövlət muzeyinin direktoru vəzifəsini aparmışdır.

Mirheydərzadənin direktor olduğu 15 ildə Naxçıvan Dövlət Ölkəşünaslıq Muzeyi, doğrudan da, muzey şəklinə düşərək xalqımızın mədəni inkişafına dair çoxlu maddi mədəniyyət materialları axtarıb tapmış və hal-hazırda zəhmətkeşlər qarşısında nümayiş etdirir.

Naxçıvan Dövlət Muzeyində 1926-cı ildə akademik Meşaninovun və 1927-ci ildə professor Millerin başçılığı altında şəxsən Mirheydərzadənin iştirakı ilə Naxçıvan rayonunun Qızıl Vəng ərazisində elmi tədqiqat işləri nəticəsində tapılan maddi-mədəniyyət predmetləri muzeydə saxlanılmaqdadır. Mirheydərzadənin şəxsi təşəbbüsü ilə Naxçıvan muzeyi xeyli zənginləşdirilmiş, Zoğala kəndindən tapılan Qrifon, duz mədənindən gətirilən daş baltalar, Qızıl Vəngdən tapılan gildən və tuncdan hazırlanmış qablar, çaxmaq daşı, dəvə gözündən qayrılan midiya dövrünün oxucuları, çox qədim keçmişi anladan qadın bəzək əşyaları - muncuq, bilərziklər və s. əldə edilib və saxlanılır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın çox qədim abidə rayonlarından sayılan Naxçıvan respublikasında aparılan bütün arxeoloji qazıntılarda şəxsən iştirak edən Mirheydərzadə əsil respublikaşünas olmuşdur. Məhz buna görə Mirheydərzadə akademik Maşaninovun və Millerin, Azərbaycanın görkəmli arxeoloqu Ələsgər Ələkbərovun və başqalarının elmi məqalələrində qeyd edilir və fəaliyyəti təriflənir.

Azərbaycan arxeoloqu Ə.Ələkbərovun, şəxsən Mirheydərzadənin iştirakı ilə Şərur rayonunun İbadulla kəndindəki Şər-təpə, Ovliya Novaşen kəndi üstündəki Oğlan qala, Şahtaxtı kəndindəki Kavur qalada apardığı qazıntılar nəticəsində gildən hazırlanmış rəngsiz və rəngli kuzələr, küpələr, bəzəkli qablar və s. Naxçıvan və Bakı dövlət muzeylərində saxlanılır.

Görkəmli inqilabçı, ölkəşünaslıq, muzeyşünaslıq işinin dərin bilicisi və xeyirxah insan Mirheydərzadə 1956-cı ildə 79 yaşında Naxçıvan şəhərində vəfat etmişdir.

**Fəxrəddin Cəfərov,**
**Naxçıvan MR arxiv idarəsinin rəisi, tarix elmləri namizədi.**